# Dəstəmazın, təyəmmümün və qüslun alınması qaydaları. 2

## Dəstəmazın forması.

Dəstəmaz üçün qəlbdə niyyət «qəsd bildirilir» edilir,sonra bismilləh deyilir,sonra isə əllər yuyulur.



1

sağ ovucla ağıza su alıb, yaxalayıb geri çıxartmaq,sonra buruna su çəkib ,sol şəhadət və baş barmağın köməyi ilə buruna çəkilən suyu geri çıxartmaq.



2

üzü yumaq - yuxarıdan saçın çıxdığı yerdən aşağı « boğazda » saqqalın son bitdiyi yerə və eninə iki qulağın arası olan hissələrin yuyulması.



3

sağ tərəfdən başlayaraq, əlləri, barmaqların arasını və dirsəklərə « dirsəklə bərabər » qədər yumaq.



4

Başın hər tərəfinə- əlləri alın nahiyəsindən arxa boyun tərəfə sürtərək, sonra geriyə qaytararaq məsh çəkmək.



5

iki şəhadət barmağı ilə qulağın içinə, baş barmaqla isə çöl tərəfinə məsh çəkmək



6

Sonra ayaqları topuqlarla birgə yumaq.



7

- Dəstəmaz əsnasında şəriətın qoyduğu miqdardan əlavə hərəkətlərin edilməsinin hökmü nədir ?

Dəstəmaz alarkən, əzaları üç dəfədən artıq və ya dirsəkdən yuxarı və ya topuqdan yuxarı hissələri yumaq icazəli deyildir.



8

- Dəstəmazdan sonra deyilən zikr :

« Əşhədu ən lə ilahə illəllahu vəhdəhu lə şərikə ləhu və əşhədu ənnə Muhəmmədən abduhu və Rasuluhu » «Mən şahidlik edirəm ki, Allahdan başqa ibadətə haqqı olan məbud yoxdur, O təkdir, Onun şəriki yoxdur. Və şahidlik edirəm ki, Muhəmməd onun qulu və Elçisidir»

Ət-Tirmizidə varid olan isə [Allahumməc'alni minət-təvvabiynə vəc'alniy minəl-mutətahhiriyn] Allahım! Məni tövbə edənlərdən et! Və məni təmizlənənlərdən et!

9

- Dəstəmazı pozan amillər .

1- Ön və arxa çıxışlarından xaric olan sidik,nəcis və ya yel.

2- Huşunu itirmək yaxud da yatmaq səbəbi ilə ağlın başdan getməsi

3- Dəvə əti yemək

10

## Təyəmmüm barədə

Su tapmadıqda, xəstəlik və ya şiddətli soyuq hava səbəbi ilə suyun zərər verəcəyindən qorxduqda dəstəmazı və ya qüslu əvəz edən torpaqla olan təmizlikdir.

1

Təyəmmüm üçün niyyət edib, sonra bismilləh deyilir və əlləri yerə vurub ,sonra oraya üfürüb üzə və əllərin üst tərəfinə məsh çəkilir .




2

Təyəmmüm əsnasında barmaqları aralamaq, aralarını ovmaq şəriətdə varid olmayıb



3

## Vacib olan qüslun qaydaları

Niyyət edilir, səssiz bismilləh deyilir. bütün bədəni su ilə yumaq, bu vaxt sıx və ya seyrək saçların dibini ovxalayıb islatmaq,ağızı yaxalayıb və buruna su çəkmək lazımdır.

1

- Qüslu vacib edən hallar :

1- Yuxuda və ya oyaq halda məninin(sperma) ifraz olunması, məni ifraz olmayan cinsi yaxınlıq və s.hallar . 2- Heyz(aybaşı) və nifasın (doğuşdan sonra qanaxmanın) bitməsi. 3- Ölüyə (şəhidlərdən başqa) 4- İslamı qəbul edən kafir

2

Hazırlayan : Peyğəmbər məscidinin müəllimi və "Sünnə İnstitutu : « mahadsunnah.com » un nəzarətçisi Dr.Heysəm Sərhan.

Müəllif , yayım və paylama hüquqları qorunur.
Broşuru tərcümə etmək üçün: sarhaan.com və ya barkodu skan edin.